**SAYAD ÇİNGİZ qızı MEHTİZADƏ**
*Bakı Dövlət Universiteti*
E-mail: sayadmehtizade@gmail.com

# XVII ƏSR AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN TİCARƏT HƏYATI YAN STREYSİN MƏLUMATLARINDA

**Xülasə:** Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzləri olan bir çox şəhərləri uzun əsrlər boyu beynəlxalq ticarətdə əhəmiyyətini itirmirdi. Yurdumuzun xam ipəyi, çeşid-çeşid ipək parçaları, sənətkarlarımızın hazırladıqları nəfis və zövqlü zərgərlik məmulatları, toxuculuq məhsulları, dünyaca məşhur olan xalçalarımız və s. Azərbaycanın şöhrətini dünyanın hər yerinə yaymışdı.
Əvvəlki əsrlərdə olduğu kimi, XVII əsrdə də Azərbaycanla ticarət əlaqələri yaratmağa çalışan bir çox Avropa dövlətləri var idi. Avropa dövlətləri elçilərini ard-arda Azərbaycan hökmdarlarının yanına göndərir, Azərbaycandan ticarət imtiyazları qoparmağa çalışır və Şərq bazarlarında hökmranlığı ələ keçirmək uğrunda bir-birləri ilə mübarizə aparırdılar. Bu mübarizəyə Hollandiya da qoşulmuşdu. Holland tacirlərinin güzəştli şərtlərlə Azərbaycan bazarlarında ticarət etmələri, ayrı-ayrı Azərbaycan şəhərlərinin ticarət həyatı haqqında məlumatlar, əsasən hansı malların satışının daha çox gəlir gətirməsi kimi məsələlər məşhur holland gəmiçisi Yan Streysin "Üç səyahət" adlı əsərində yer almışdır. O, daha çox ticarət məsələlərinə toxunsa da, Azərbaycan əhalisinin adət-ənənələri, bayramları, məişəti haqqında da müəyyən qeydlər etmişdir. Yan Streys İrəvan, Dərbənd, Şamaxı, Ərdəbil, İsfahan, Zəncan, Sultaniyyə və digər şəhərlərin ticarət həyatı haqqında maraqlı məlumatlar vermişdir.
**Açar sözlər:** ticarət, İrəvan, Ərdəbil, Şamaxı, Streys, holland.
**UOT:** 94(479.24)

**DOI:** doi.org/10.54414/ceai5005

## Giriş

Azərbaycanın beynəlxalq karvan yollarının kəsişdiyi qovşaqda yerləşməsi onun beynəlxalq iqtisadi münasibətlərdəki əhəmiyyətini artırırdı. Ta qədim dövrlərdən beynəlxalq aləmdə önəmli yer tutan Azərbaycan bütün orta əsrlər boyu da eyni əhəmiyyətə malik idi. Əlverişli təbii-coğrafi şəraitə, bol xammala malik olan Azərbaycanda ipəyə, yuna, pambığa, müxtəlif sənət məhsullarına həm daxili tələbatın, həm də beynəlxalq bazar tələbatının artması nəticəsində şəhərlər canlanmış, sənətkarlıq və ticarət inkişaf etmişdi.

Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzləri olan bir çox şəhərləri uzun əsrlər boyu beynəlxalq ticarətdə əhəmiyyətini itirmirdi. Yurdumuzun xam ipəyi, çeşid-çeşid ipək parçaları, sənətkarlarımızın hazırladıqları nəfis və zövqlü zərgərlik məmulatları, toxuculuq məhsulları, dünyaca məşhur olan xalçalarımız və s. Azərbaycanın şöhrətini dünyanın hər yerinə yaymışdı. Bəzi şəhərlərin, xüsusilə də Bakı, Təbriz, Şamaxı, Ərdəbil, Dərbənd, Naxçıvan kimi şəhərlərin Səfəvi dövlətinin iqtisadi həyatında müstəsna rolu vardı.

Azərbaycan şəhərlərinin beynəlxalq ticarətdə oynadığı rola baxdığımız zaman ölkəmizin Avropa üçün nə dərəcədə əhəmiyyətli olduğunu daha yaxşı anlaya bilirik. Avropa dövlətləri elçilərini ard-arda Azərbaycan hökmdarlarının yanına göndərir, Azərbaycandan ticarət imtiyazları qoparmağa çalışır və Şərq bazarlarında hökmranlığı ələ keçirmək uğrunda bir-birləri ilə mübarizə aparırdılar. XVII əsrdə bu mübarizəyə Hollandiya da qoşulmuşdu. 1602-ci ildə holland Ost-Hind şirkəti yaradılmış və Hollandiya Şərq bazarlarında hökmranlıq uğrunda Venesiya, Portuqaliya və İngiltərə ilə mübarizəyə girişmişdi. Şah I Abbasın ölümündən sonra hakimiyyətə gələn şah I Səfinin

dövründə ingilislər Səfəvilər dövlətindəki imtiyazlarını itirməyə başlamışdılar. 1650-ci ildə isə Səfəvi-İngiltərə ticarəti tənəzzülə uğramışdı. Əsrin sonlarına doğru onların yerini holland tacirləri tutmağa başlayır. Hollandiyanın Azərbaycana artan marağının nəticəsi idi ki, 1670-ci ilin iyununda Həştərxandan yola çıxan holland səyyahı Yan Streys də Azərbaycan ərazisinə gəlir.

**Holland səyyahı Yan Streysin səyahəti**

Yan Streys (*Jans Janszoon Struys*) (1630-1694) məşhur holland dənizçisi olmuşdur. O, 1647-1656-cı illərdə iki dəfə səyahətə çıxmış, bu səyahətləri gedişində Aralıq dənizi, Atlantik okeanı və Hind okeanı sahillərindəki bölgələri gəzmiş, Osmanlı imperiyası ərazisində, Siamda, İndoneziyada, Tayvanda, Yaponiyada olmuşdur [1, səh.177; 2, səh.271]. 1668-ci ildə üçüncü dəfə səyahətə çıxmış Yan Streys Moskva dövlətinin xahişi ilə Volqa çayı hövzəsində gəmiqayırma işlərində yaxından iştirak etmişdir. Holland səyyahı özünün hazırladığı gəmi ilə Stepan Razinin başçılıq etdiyi üsyançıların mühasirədə saxladığı Həştərxana gəlmiş, buradan Tarkuya getmiş, Tarkuda Qaytaq usmisi tərəfindən əsir alınmış və yalnız 1671-ci ildə azadlığa çıxa bilmişdir. Yan Streys bu sərgüzəştləri zamanı Dərbənddə, Şamaxıda, İrəvanda olmuş, Polşanın səfiri qismində Səfəvi dövlətinə səfər edərkən Ərdəbil, Şamaxı, Qəzvin, Qum, İsfahan, Şiraz şəhərlərində, Hörmüz və Qombrunda olmuşdur [1, səh.177]. O, 1673-cü ildə Amsterdama geri qayıtdıqdan sonra öz səyahətnaməsini yazmışdır.

Yan Streysin "Üç səyahət" adlı əsərində XVII əsr Azərbaycan şəhərlərinin iqtisadi, ictimai və siyasi həyatı haqqında məlumatlar vardır. Azərbaycanla bağlı olan məlumatlar yetərlidir və diqqəti cəlb edir. O, dövrün tələbinə uyğun olaraq daha çox Azərbaycan şəhərlərinin ticarət həyatı haqqında məlumatlar vermişdir. Lakin Azərbaycan əhalisinin adət-ənənələri, bayramları, məişəti haqqında da müəyyən qeydlər etmişdir. Onun müsəlmanlara qərəzli münasibətini yazılarından, hadisələrə münasibətindən asanlıqla başa düşmək olur. Bu məlumatların digər mənbələrlə müqayisəli təhlili nəticəsində biz orta əsr Azərbaycanının obyektiv təsvirini yarada bilirik.

Yan Streysin məlumatları bir daha təsdiq edir ki, onun ölkəsi də Səfəvilərlə sıx ticarət əlaqələri qurmaqda maraqlı olmuşdur. Streys göstərirdi ki, Şərqin hər yerində holland tacirlərinə rast gəlmək mümkündür. O, Qombrunda (Bəndər Abbasda[1]) holland tacirlərinin digər əcnəbi tacirlərdən üstün tutulduğunu və Səfəvi şahının hollandlara müttəfiq kimi yanaşdığını göstərirdi. Fransız səyyahı Jan Şarden də bu məlumatı təsdiqləyir. O, Hollandiya tacirlərinin hər il şahın adamlarından bazar qiymətlərinin 1/3-i qədər 600 tay ipək satın aldıqlarını və bir sıra imtiyazlardan istifadə etdiklərini qeyd edir [3, səh.191]. Hollandiyanın Ost-Hind şirkətinin Şah I Süleymanla bağladığı ticarət müqaviləsi hollandlara verilmiş imtiyazları qoruyub saxlayırdı.

**Yan Streys Azərbaycan tacirlərinin fəaliyyəti haqqında**

Azərbaycan haqqında ilk məlumatları Yan Streys "əla ticarət şəhərində", yəni Həştərxanda olduğu zaman verir və burada Azərbaycan tacirlərinin qızğın ticarət etdiklərini bildirir [4, səh.124]. O burada daha çox ipək ticarətinə üstünlük verildiyini qeyd edirdi. İpəyi isə bura Şamaxıdan gətirirdilər. O, Həştərxana gedən və ipək tayları yüklənmiş bir barja[2] ilə rastlaşdığını da qeyd edirdi. Səyyahın Azərbaycanda balıqçılıq və balıq ticarəti haqqında qeydləri də maraqlıdır. Volqanın deltasına çatdıqda Streys burada nərə balığının bolluğundan yazır, balıqçıların bu balıqları tutaraq qarınlarını yarıb kürüsünü çıxardıqdan sonra suya atmasından heyrətləndiyini bildirir. Bu faktlar Azərbaycanda ipək və balıq ticarətinin inkişaf etməsi haqqında qədim və orta əsrlər dövrü müəlliflərinin məlumatlarını bir daha təsdiq edir.

Streysdən bir əsr öncə Azərbaycanda olmuş Antoni Cenkinson da Azərbaycan tacirlərinin Həştərxanda ticarətlə məşğul olması haqqında məlumat verirdi. Cenkinson Azərbaycanın Həştərxan vasitəsilə Rusiya, Volqaboyu xalqları və Mərkəzi Asiya ilə qızğın ticarət apardığını

[1] 1615-ci ildə sah I Abbas Qombrunu portuqaliyalılardan geri alır və onu Bəndər-Abbas adlandırır

[2] malların daşınmasında istifadə olunan, göyərtəsi olmayan taxtadan düzəldilmiş dəniz, çay və göl gəmisi

bildirirdi. O, Şamaxıdan gələn tacirlərin Həştərxana ipək sap, parça, qurşaq üçün müxtəlif növ rəngbərəng ipək, zireh, kaman, qılınc və s. bu kimi şeylər, həmçinin taxıl və qoz gətirdiklərini qeyd edirdi. O yazırdı: "Həştərxanda Şamaxı tacirləri vardı; mən onlara mahud təklif edib onların malları ilə mübadilə etmək istədim. Lakin onlar etiraz edib dedilər ki, biz öz yerimizdə də mahudu həmin qiymətə ala bilərik" [2, səh.222].

Həştərxanda Azərbaycan tacirlərinin olması barədə alman səyyahı Adam Olearinin qeydləri də maraqlıdır. Oleari burada əla növ üzüm tənəklərinin olduğunu göstərərək yazırdı: "Həştərxana ilk üzüm tənəklərini Azərbaycan tacirləri - şamaxılılar gətiriblər ki, bunları qoca bir rahib şəhərin qarşısındakı monastırın həyətində əkib" [2, səh.233]. Təkcə bu fakt Azərbaycan tacirlərinin geniş coğrafiyada ticarət apardıqlarının sübutudur.

**Yan Streys İrəvan şəhərinin ticarət həyatı haqqında.** Holland səyyahı əsərinin XVIII hissəsində İrəvan şəhəri, onun ticarət həyatı haqqında yazırdı: "Şəhərdə Dağıstan tatarlarının məşğul olduğu insan alveri yoxdur, qida və digər malların ticarəti azdır və burada qullar o qədər ucuzdur ki, gənc və güclü bir qulu 10 reyxstalerə ala bilərsiniz" [5, səh.223].

Streys İrəvanda çox qalmır. Onu bir nəfər azərbaycanlı satın alır və Streys Dərbəndə gəlir [2, səh.274].

**Yan Streys Dərbənd şəhərinin ticarət həyatı haqqında.** Səyahətnaməsinin XX hissəsində Dərbənd şəhərinin ticarət həyatı haqqında yazan Streys bu şəhəri "Xəzər dənizinin birinci şəhəri" adlandırır [5, səh.234]. O yazırdı: "Mən ayın 12-də (iyul ayı nəzərdə tutulur – S.M.) öz ağamla birlikdə İrəvandan Dərbəndə getdim. Orada ağamla birlikdə ticarət məqsədilə tez-tez Xəzər dənizini o tərəf - bu tərəfə keçirdim. O, qızıl boya və başqa boyaq otları ilə alver edirdi. Bu məhsullar o yerlərdə bol-bol bitir. Ağamın xüsusi barjası vardı. O bu barjada mal aparıb gətirərdi" [4, səh.125]. Streys Xəzərin Şərq sahilində də dəyərli mallar olduğunu, ağasının tumac, zəfəran, ravənd (dərman bitkisi – S.M.) kimi malların alqı-satqısı ilə məşğul olduğunu qeyd edirdi [5, səh.231-232]. O, Xəzər dənizi ticarətindən danışarkən göstərirdi ki, bu dənizdə tutumu 40-50 last (1 last - 2 ton) olan gəmilər yaxşı hərəkət edir, ancaq iri gəmilər dənizin hər yerindən asanlıqla keçə bilmir [6, səh.12]. Bunlar göstərir ki, Dərbənd şəhəri, xüsusilə XVII əsrdə, Səfəvilərin Xəzər dənizinin qərb sahillərində əsas iqtisadi-ticarət mərkəzlərindən biri idi. Yan Streysin verdiyi bu məlumatlar Dərbəndin XVII yüzillikdə ölkənin daxili ticarətində əhəmiyyətinin artdığını, eləcə də digər iqtisadi mərkəzlərlə sıx əlaqələr saxladığını göstərir.

Yan Streys Dərbənd şəhərinin ölkənin iqtisadi həyatında rolunu düzgün qiymətləndirmiş, cənubda - Hindistan sərhədində Qombrun (Bəndər Abbas) olduğu kimi, onun şimalda xüsusi əhəmiyyət kəsb etdiyini, dövlətin açarı olduğunu bildirmişdir [5, səh.235].

Streys azərbaycanlı tacirlərlə ticarət ittifaqı yaratmağa da çalışmışdı. Onun azərbaycanlı ipək tacirləri ilə bir sövdələşməsi Hollandiya kapitalının o zamankı planlarını çox aydın şəkildə əks etdirirdi. Bu sövdələşməyə əsasən tacirlər belə qənaətə gəlmişdilər: Volqa-Xəzər yolu ilə Hollandiyadan qalay, sink, civə, mahud, atlas və başqa mallar almaq olar ki, bunları da Dərbənd, Şamaxı və Ərdəbildə böyük qazancla satmaq mümkündür. Streys bu hadisəni belə qeyd edirdi: "Tacirlər mənimlə görüşəndə italyan dilini bilib-bilmədiyimi soruşdular. Çox yaxşı bilmədiyimi dedim. Sonra amsterdamlı olub-olmadığımı və uyğun bir tacir tanıyıb-tanımadığımı soruşdular. Mən yox cavabı verdim, amma orada çox sayda ipək taciri yaşadığını bildirdim. Dedilər ki, Hollandiyadan Xəzər dənizi vasitəsilə qalay, sink, civə, atlas parça, digər holland mallarını idxal etmək və Dərbənd, Şamaxı və Ərdəbildə böyük qazancla satmaq mümkündür." [5, səh.232].

Streys Azərbaycanla ticarət əlaqələrinin xeyli gəlir gətirdiyini görür və anlayırdı. Ona görə də bir dəfə ağasına demişdi ki, "əgər azadlığa çıxsam, Hollandiya ticarət gəmisi ilə yenə bura qayıdacağam". Səbəbini isə belə izah etmişdi: "(Vətənimdə) Xəzər dənizində üzmək imkanını açıqlasam, əminəm ki, hamı bir-birinin ardınca bura gəlmək istəyəcək və mallarını daşımağı mənə həvalə edəcəklər. Buna şübhəm yoxdur"

[5, səh.233]. O yazırdı ki: "ipək ticarətini bütünlüklə Hollandiyaya istiqamətləndirmək lazımdır. Böyük, baha başa gələn mühafizə dəstəsi ilə çox təhlükəli, türklərin ağlasığmaz miqdarda gömrük aldığı uzaq qərb yolundansa, Xəzər-Volqa-Arxangelsk vasitəsilə Smirniya getmək daha sərfəli və daha yaxşıdır. Həmçinin ispan sahillərində barbar soyğunçularının basqınına məruz qalıb böyük itki verməkdənsə, Hollandiyaya mal göndərmək daha yaxşı və daha münasibdir" [5, səh.232; 7, səh.265].

Streys səyahətnaməsində yazırdı: "Xəzərin şərq sahilində isə əla yumşaq dəri, zəfəran, ravənd və olduqca yaxşı başqa mallar var" [5, səh.232; 7, səh.265, 2, səh.275] və deyirdi ki, onun ağası həmişə bu mallarla alver edirdi. Hətta əsir ola-ola öz dövlətinin iqtisadi marağından çıxış edən Yan Streys Xəzər dənizini daha dərindən öyrənməyə çalışırdı. Bu məqsədlə o, ağası Hacı Məhəmməd Salehə dərin dəniz sularında üzməyi təklif etmişdi. Onun bu təklifini rədd edən Hacı Saleh: "Mən nəyə görə gəmim, malım və canımla sənin gülünc marağına görə risk etməliyəm? Məgər bizim təhlükəsiz yolla getməyimiz sənə bəs deyilmi?" deyə cavab vermişdi. [5, səh.234; 7, səh.265].

Səyyah Dərbənd şəhərinin ticarət həyatından bəhs edərkən burada az miqdarda da olsa qul ticarətindən yazır: "Dərbənd şəhərində xristianlar yoxdur, yalnız Məhəmmədilər (müsəlmanlar nəzərdə tutulur) və Venyaminov qolundan olması ilə fəxr edən az sayda yəhudi var. Bu yəhudilər azərbaycanlıların buraya Dağıstandan gətirdiyi mallarla geniş ticarət edirlər. Digər sakinlərin əsas ticarəti isə... buraya "farslar" tərəfindən... gətirilən qulların alqı-satqısından ibarətdir." [5, səh.234].

Dərbənddə yenidən satılan Yan Streysi bu dəfə Hacı Bayraməli satın alır. O buradan Şamaxıya yol düşür.

**Yan Streys Şamaxı şəhərinin ticarət həyatı haqqında.** Streys Şamaxını "məşhur ticarət şəhəri" adlandırırdı [4, səh.127]. O, şəhərin ticarət həyatı və karvansaraları haqqında məlumatlar verir. Onun verdiyi məlumatlardan aydın olur ki, Şamaxı ilə Dərbənd arasında geniş ticarət əlaqəsi, mal mübadiləsi mövcud idi. Təsadüfi deyildi ki, onların Şamaxıya getmiş ticarət karvanı 1800 at, çoxlu dəvə, başqa yük heyvanları və bir neçə min adamdan ibarət idi. Onlar gətirdikləri malların bu zəngin ticarət şəhərində satılacağından əmin idilər. XV əsrdə Azərbaycanda olan Klavixo da Şamaxıda ipəyin çox istehsal olunduğunu və ipək almaq üçün bura Genuya və Venesiya tacirlərinin gəldiyini vurğulayırdı. (8, səh.70). Mənbələrin verdiyi məlumatdan da görünür ki, iki əsr öncə də Şamaxı şəhəri ticarət mərkəzi idi. Baxmayaraq ki, Osmanlı-Səfəvi savaşları şəhərlərin inkişafına və ticarət əlaqələrinə böyük zərər vururdu, amma Şamaxı şəhəri əvvəllərdə olduğu kimi, yenə də qonşu şəhərlərlə və dövlətlərlə qızğın ticarət əlaqələrini saxlayır və inkişaf etdirirdi. Bu şəhər haqqında holland səyyahının verdiyi maraqlı məlumatlardan biri də budur ki, Streys 1671-ci il iyunun əvvəllərində Şamaxıda olan venesiyalı ilə bir dağın təpəsinə qalxmış və burada "dərin bir göl" görmüşdü. Səyyah həmin gölün "balıqla zəngin olduğunu", buradan tutulan balığın "çox dadlı olduğunu və baha qiymətə" satıldığını qeyd edirdi [4, səh.129].

Yan Streys Şamaxı şəhərində çoxlu bazarların olduğunu xüsusi olaraq vurğulayırdı. Onun Şamaxının ticarət həyatı haqqındakı qeydləri maraqlıdır: "Şəhərin cənub hissəsində xəz, ipək, pambıq, qılınc və başqa sənətkarlıq məmulatlarının, həmçinin gümüş və qızılla toxunmuş şalların satıldığı çox sayda dükan, çadır və tövlədən ibarət olan böyük bir bazar var. Bu bazarda bir çox keçidi və dükanları olan iki xüsusi böyük həyət var ki, bura xarici tacirlər gəlir və mallarını satırlar. Birincisi, imperator sarayı ilə eyni mənanı daşıyan Şah Karvansarayı adlanır, burada əsasən ruslar ticarət edirlər. Qalay, mis, kükürd və digər mallarla mübadilə edirlər. Digəri isə Ləzgi Karvansarayı və ya Tatar evi adlanır. Dağıstanlılar və digər tatarlar buraya daha çox at, insan, kişi, qadın və uşaq satmağa gəlirlər... Bir çox yəhudilər də pambıq parça və yorğan örtüklərini satmaq üçün buraya gəlirlər" [5, səh.246]. Qeyd etmək lazımdır ki, Səfəvilər dövründə karvansaralar ticarətin inkişaf göstəricilərindən biri idi. Karvan yollarının üzərində mütləq karvansaralar olurdu. Bu karvansaralarda səyyahlar, tacirlər gecələyir, minik vasitələrini tövlələrdə, mallarını isə xüsusi anbarlarda yerləşdirirdilər.

Yan Streysin Şamaxı haqqında verdiyi bu məlumatlara bənzər qeydlər Adam Olearinin əsərində də vardır. Oleari yazırdı: "Şəhərin cənub tərəfində bir neçə üstüörtülü küçədən ibarət bazar və bu bazarda ayrı-ayrı tacirlərə məxsus dükanlar var. Bu dükanlarda hər cür mal, naxışlı ipək parça, ipək, qızıl və gümüş məmulatları, ox və yay, qılınc, hər cür başqa əl işləri olur ki, bütün bunları ucuz qiymətə almaq mümkündür. Elə bu bazarda hər birinin ayrıca girişi olan, xarici tacirlərin öz malları ilə topdansatış ticarət etdikləri iki anbar binası, yaxud ticarət evi var. Bu ticarət evi, yaxud karvansaralardan biri şah karvansarayı adlanır və buraya rus tacirləri yerləşmişlər. Onlar qalay, mis, yumşaq dərilər, samur xəzi ilə alver edirlər. İkincisi, ləzgi karvansarayı adlanır və burada çərkəz tatarları at, əsir və s. satırlar" [9, səh.555]. Onun məlumatına görə bura hər yerdən əcnəbi tacirlər gəlir və ticarət edirlər. Bu karvansaralarda çox gözəl Azərbaycan xalçaları satılır. Karvansarada yəhudilər də vardır. Onlar Şamaxı bazarlarında satmaq üçün ipək məhsulları və gözəl xalçalar gətirirlər [9, səh.556]. Oleari dükan və karvansaraların sayını da qeyd edirdi: "Burada 44 karvansara, 200-ə yaxın dükan vardı". Bu məlumatlar karvansaralarda aparılan topdansatış ticarətinin səviyyəsi barədə bizdə konkret təsəvvür yaradır.

Səfəvilər hökümətinin dünyanın müxtəlif ölkələri ilə ticarət əlaqələri saxladığını qeyd edən Adam Oleari yazırdı: "Burada hər cür xalqın tacirləri, xırdavatçıları var; onlar bir yerdən mal alıb-satır, xırdavatla ticarət edirlər; burada iranlılardan başqa hindlilər, Xarəzm, Çin və Buxaradan gəlmiş müxtəlif tatarlar, türklər, yəhudilər, ermənilər, gürcülər və onlardan başqa ingilislər, hollandlar, fransızlar, italyanlar və ispanlar ticarət edirlər" [10, səh.92].

XVII əsrdə Şamaxının ticarət əhəmiyyəti daşıdığını, burada çoxlu karvansaraların olmasını 1623-cü ildə Səfəvilər dövlətinə gələn rus taciri Fedot Kotov da təsdiqləyir: "Burada müxtəlif mallar və ipək parçalar vardır. İpək Şamaxının ətraf kəndlərində istehsal edilir, şəhərdə isə ondan parça toxuyur və müxtəlif boyalarla rəngləyirlər" [11, səh.26]. O yazırdı: "Şabranla Şamaxı arasında karvan yollarındakı 3 karvansaranın hər biri möhkəm və yaxşı daş tikililərdir və onların anbarları, tövlələri də vardır. Bu karvansaralar yolçuları quldurlardan qorumaq üçün inşa edilmişdir" [12, səh.72-78]. O, Şamaxı şəhərində 7 daş karvansara olduğunu göstərmişdir. Tacir qızğın alver gedən Şamaxı bazarına bir çox əcnəbi ölkələrdən, o cümlədən Türkiyədən də mal gətirildiyini yazmışdır [12, səh.72].

Şamaxının ölkədaxili ticarət əlaqələrində xüsusi əhəmiyyətə malik olması şəhərin həm daxili, həm də beynəlxalq karvan yolları üzərində yerləşməsi ilə sıx bağlı idi. Şamaxı - Dərbənd, Şamaxı -Qombrun daxili karvan yolları və şəhərin ölkədaxili iqtisadi əlaqələrdə əhəmiyyətli mövqeyi haqqında Yan Streysin gündəliyində də qeydlər vardır. Yan Streys Şamaxıdan Qombruna yola düşən 1000 baş at, dəvə və başqa yük heyvanları, 2000 nəfərdən ibarət ticarət karvanı haqqında məlumat verərək yazırdı ki, onun ağası Hacı Bayraməli İsfahana, şahın yanına 20 at yükü təzə yığılmış şabalıd da aparırdı. Streys Şamaxı –Fakirli - Həsili – Cavad - Muğan çölü – Canlı - Cəbədar - Ərdəbil - Sultaniyyə - Qəzvin – Savə - Qum – İsfahan - Lar karvan yolu ilə hərəkət edərək Qombruna gəldiklərini, Şirazla Lar arasındakı yolda Qombrundan Şamaxıya gedən ticarət karvanı ilə qarşılaşdıqlarını və çoxlu adamın müşayiət etdiyi dəvələrin, qatır və atların cürbəcür hind malları ilə yükləndiyini deyirdi [10, səh.337]. Səyyahın verdiyi bu məlumatlar XVII yüzillikdə əmtəə-pul münasibətlərinin, daxili ticarətin təkamülünün ümumi mənzərəsini üzə çıxarmaqla yanaşı, Dərbənddən Qombruna qədər uzanan karvan yolu boyunca şəhərlərin, o cümlədən Şamaxı şəhərinin və digər yaşayış məskənlərinin qarşılıqlı iqtisadi əlaqələrini və ticarətin inkişaf səviyyəsini müəyyən etməyə də imkan yaradır.

Orta əsrlərdə Azərbaycanda səfərdə olmuş digər səyyahlar kimi Streys də ticarət yollarının təhlükəli olduğunu, tez-tez quldur basqınlarına məruz qaldıqlarını qeyd edirdi. O, Şamaxı şəhərində olarkən məruz qaldığı quldur basqını haqqında belə yazırdı: "Axşam Muskar kəndində dayandıq. Ertəsi gün yollarda və kolluqlarda çox sayda qaçaq və quldur gördük. Onlar bizi çox güclü hesab etdikləri üçün qarət etmək istəmədilər... böyük və yaxşı silahlanmış bir

dəstə olmadan buraya səyahət etmək təhlükəlidir” [5, səh.244]. Yan Streys əsərinin müxtəlif hissələrində, ayrı-ayrı şəhərlərdə olduğu zaman quldur basqınlarından ehtiyat etdiklərini yazırdı [5, səh.283]. Azərbaycana səfər etmiş digər Avropa səyyahları kimi o da ticarət yollarının təhlükəli olmasına diqqət çəkmişdi. Göründüyü kimi, Azərbaycan Səfəvilər dövlətinin ticarətin inkişafına hər cür dəstək, himayə göstərməsinə baxmayaraq, ticarət yolları daim təhlükəli olmuş, səyyahlar quldur və soyğunçuların hücumlarına məruz qalmışdılar.

**Yan Streys Ərdəbil şəhərinin ticarət həyatı haqqında.** Oktyabrın 30-da Şamaxıdan yola çıxan Hacı Bayraməli ilə Yan Streys noyabrın 10-da Ərdəbilə çatırlar. Yan Streysin Ərdəbil haqqında fikri belə idi: “Ərdəbil Gilandan, İraqdan, Gürcüstandan və digər ölkələrdən gələn tacirlərin toplaşdığı çox məşhur və böyük ticarət şəhəridir” [5, səh.294]. O, Ərdəbil bazarının həftədə iki dəfə yığıldığını qeyd edirdi. Bu isə şəhərin ticarət əhəmiyyətinin çox yüksək olduğunu göstərir.

Ərdəbildə uzunluğu 300, eni isə 150 addım olan bazar meydanında hər iki tərəfdən sıra ilə dükanlar tikilmişdi. Streys Ərdəbildə Qeysəriyyə adlı tağ-tavanlı gözəl bir dördkünc bina olduğunu bildirirdi. Burada qızılı və gümüşü sapla toxunmuş mahud, nadir daş-qaş, xalça, ipək və başqa bahalı mallarla ticarət edildiyini yazırdı, Qeysəriyyənin dükanlarla dolu olduğunu qeyd edirdi. O yazırdı: “Burada lap ilk baxışdaca Qeysəriyyə adlı dördbucaqlı bina dərhal diqqəti cəlb edir. Qeysəriyyədə qızıl, gümüş sapla toxunmuş mahud parçalar, xalça, əla keyfiyyətli ipək, qumaşlar, bahalı və qiymətli mallar satılırdı... Qeysəriyyədən fərqli olaraq, əsasən sadə mallar satılan kiçik və örtülü dükanları olan üç küçə var. Əcnəbi tacirlər - türklər, tatarlar, hindlilər üçün əlahiddə karvansaralar var” [2, səh.280; 7, səh.156]. Qeyd etmək lazımdır ki, Ərdəbilin məşhur Qeysəriyyə bazarı hələ XV əsrdə qüdrətli Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən tikilmişdir. Şərq ölkələrində ən gözəl və geniş bazar kimi şöhrət tapmış Qeysəriyyə bazarı üstüörtülü və səkkizkünclü quruluşa malik olmuşdur. Onun üstü günbəz və tağla örtülmüşdü. Bu bazarda qiymətli mallar və cəvahirat satılırdı.

Yan Streys Ərdəbil şəhərinin ətrafında bir-birinə yaxın məsafədə 57 kəndin olduğunu və bu kəndlərin sakinlərinin meyvə, yağ, pendir, yumurta və başqa məhsulları hər gün şəhər bazarında satdıqlarını qeyd edir. O yazır ki, elə bu səbəbdən bazarda hər şey ucuz və boldur [5, səh.161; 7, səh.171]. Burada Yan Streys Ərdəbilin böyük ticarət şəhərinə çevrilməsində ətraf kəndlərin əmtəə təsərrüfatının müəyyən rolu olduğunu göstərməyə çalışmışdır.

Qeysəriyyə bazarı haqqında Adam Oleari də məlumat verərək onun möhtəşəmliyini vurğulamışdı: “Ərdəbil şəhərində uzunluğu 300, eni isə 150 addım olan bir meydan vardır, bu meydanın hər iki tərəfi başdan-başa yaraşıqlı, cərgə ilə tikilmiş dükanlardan ibarət olub, hər birində xüsusi sexlərin sənətkarları çalışırdılar” [11, səh.24]. Səyyah davam edir: “Burada qızıl və gümüş əşyalarla, qiymətli daşlarla, ən yaxşı ipəklə və digər bahalı mallarla ticarət edirlər. Bu binanın üç ayrı-ayrı darvazasından küçəyə çıxırsan. Burada isə adi əşyalarla ticarət edirlər. Daha sonra hər yerdə çoxlu karvansaralara rast gəlmək olur. Bu karvansaralarda əcnəbi tacirlər öz malları ilə yerləşmişlər: türklər, tatarlar, Şərqi Hindistandan olanlar” [9, səh.584].

Yan Streys bu qədim ticarət şəhəri haqqındakı məlumatlarını belə tamamlayır: “Bazara öz malları ilə saysız-hesabsız kəndli gəlir və onlar yüklərini daşımaq üçün at, dəvə, kəl, hətta inəkdən də istifadə edirlər. Bundan başqa müqəddəs yeri ziyarətə gələnlərdən şəhər olduqca çoxlu mənfəət götürürdü. İsfahandan gələn tacirlərin də şəhərə xeyri az deyildi. Ərdəbil özünün qədim möhtəşəmliyi ilə çox şəhərləri geridə qoyur” [2, səh.281; 7, səh.171].

Streysdən bir əsr əvvəl Azərbaycana səfər etmiş “Moskva” ticarət kompaniyasının agenti Lorens Çepmen Ərdəbil şəhərinin zəngin ticarət mərkəzi olduğunu yazırdı. Streyslə eyni dövrdə yaşamış İtaliya elçisi Pyetro della Valle 1619-cu il aprelin 22-də İsfahandan öz ölkəsinə göndərdiyi məktubda Ərdəbilin iqtisadiyyatı haqqında yazır və şəhər əhalisinin çox olduğunu qeyd edərək, burada bazarlarda hər cür malın tapıldığını vurğulayırdı. O, şəhərin zənginliyini onun dörd karvan yolu ayrıcında yerləşməsi ilə

əlaqələndirərək qeyd edirdi ki, bura Kürdüstan, Gürcüstan, Qafqaz və Gilandan müxtəlif ticarət malları gətirib satırlar [6, səh.12]. 1668-ci ildə bir neçə dəfə Azərbaycanda olmuş fransız səyyahı Jan Batist Tavernyenin də Ərdəbil haqqında qeydləri maraqlıdır. O deyirdi ki, şəhərin iqtisadi yüksəlişi yalnız Səfəvi şahlarının qəbirlərinin burada yerləşməsi ilə bağlı deyildir. Ərdəbilə ipəklə dolu ticarət karvanları gəlirdi: “Şamaxı və Gilandan buraya vaxtaşırı 800-900 baş yüklü dəvədən ibarət ticarət karvanı gəlir ki, onlar şəhərə əsasən ipək gətirirlər. Bundan əlavə Gilan və Şamaxı tacirləri İzmirə, İstanbula Ərdəbil şəhərindən keçən karvan yolu ilə gedirlər. Ərdəbil də Təbriz kimi, ölkənin zəngin şəhərlərindəndir və burada çeşid-çeşid ticarət malları vardır” [6, səh.12; 1, səh.181].

Ərdəbildə 14 gün qalan Yan Streys buradan İsfahana yola düşür.

**Yan Streys İsfahan şəhərinin ticarət həyatı haqqında.** Yanvarın 19-u İsfahana çatan Yan Streys şəhərlə ilk tanışlığını belə qeyd edir: “Mən uzun müddət idi bura can atırdım. Bu şəhər gördüyüm digər şəhərlərdən daha böyükdür” [5, səh.308]. Bu şəhəri də izdihamlı görən Streys: “İnsanlar çox olduğuna görə meydan və bazarın yaxınlığında tıxac yaranır. Meydan və ya böyük bazar meydanı isə çox böyükdür. Onun uzunluğu 700 addım, eni isə 250 addımdır” [5, səh.308] deyə səyahətnaməsində qeyd edir.

Bazarda malların bolluğunu vurğulayan səyyah insanların istidən əziyyət çəkməmələri üçün bazar küçələrinin üstlərinin örtüldüyünü də yazmışdı: “Meydanın şimal hissəsindən bazara çıxırsan, orada əla ticarət evi var ki, hər cür mal ala bilərsən. Bu bazar çoxlu küçələrdən ibarətdir, bu küçələrin üstü əsasən örtülüdür ki, yayın istisində rahat və təhlükəsiz gəzə biləsən. “Farslardan” başqa burada müxtəlif tacirlər var. Məsələn: hindlilər, müxtəlif tatarlar, türklər, ermənilər, gürcülər, hollandlar, ingilislər, fransızlar, italyanlar və s. [5, səh.314].

1624-cü ildə İsfahanda olan Fedot Kotov da burada bir çox xalqların nümayəndələrinin ticarət etdiyini yazır və bununla da Yan Streysin məlumatlarını təsdiqləyir: “Orada hər cür insan ticarət edir – taciklər, hindlilər, türklər, ərəblər, ermənilər və yəhudilər” [12, səh.80]. İsfahanın 500 min əhalisi olduğunu vurğulayan Adam Oleari isə azərbaycanlıların bağçaları çox sevdiklərini [9, səh.719] yazırdı: “Bu bağçalarda onlar üzümlüklər salır və hər cür ağac əkirdilər”. Yan Streysin İsfahandakı bazar meydanı haqqında verdiyi məlumatlar eynilə Adam Olearinin səyahətnaməsində də yer aldığı üçün [9, səh.721-728] onları təkrarlamağa ehtiyac duymuruq.

**Yan Streys Zəncan və Sultaniyyə şəhərləri haqqında.** Yan Streys İsfahandan sonra digər Azərbaycan şəhərlərində də olmuş və bu şəhərlərin iqtisadi əhəmiyyətindən bəhs etmişdi. Səyyah 1671-ci ilin dekabrın 1-də Zəncan şəhərinə çatmışdı. O bu şəhər haqqında yazırdı: “Zəncan uzun illər kifayət qədər məşhur bir ticarət şəhəri idi, lakin ticarətin və şəhər həyatının çiçəklandiyi dövrdə Əmir Teymur tərəfindən məhv edildi” [5, səh.296]. Şəhərin dağıdılması haqqında məlumatı 1623-1624-cü illərdə Azərbaycanda olan Fedot Kotov da təsdiqləyir: “Zəncanda daşdan tikilmiş böyük bir qala var idi, amma o dağıdılmışdı. Onun yalnız bünövrəsi qalıb. İndi burada qala yoxdur, yalnız kiçik yaşayış məntəqəsi var - yer xaraba qalıb, bazar və karvansara da var və bunlar daşdan inşa edilib” [12, səh.76]. 1671-ci ilin dekabrın 2-də Sultaniyyə şəhərinə çatan Yan Streys bu şəhər haqqında da bənzər məlumatlar verir: “Sultaniyyə zalım Əmir Teymur tərəfindən məhv edildi və gəliri talandı, çünki o əvvəllər böyük və gözəl bir ticarət şəhəri idi, indi isə müdafiəsiz bir yerdir” [5, səh.297]. Bu məlumatları Adam Olearinin səyahətnaməsində də oxuyuruq: “Bir zamanlar bu şəhər (Adam Olearidə *Sulthanie* – S.M.) gözəl və əhəmiyyətli şəhərlərdən biri idi... Şəhərin bir hissəsi əmir Teymur tərəfindən, digər hissəsi isə şəhər əhalisi üsyan etdiyinə görə öz hökmdarları Xaca Rəsid tərəfindən dağıdılmışdır” [9, səh.604]. Sultaniyyə şəhərinin əvvəllər əhəmiyyətli ticarət şəhəri olduğunu isə XV əsrdə Azərbaycanda olmuş Ryu Qonzales Klavixonun verdiyi məlumatlar təsdiqləyir: “Bu şəhərin əhalisi çoxdur. Doğrudur, Tuus (Təbriz – S.M.) qədər böyük deyil, amma ticarət baxımından daha böyükdür. Bura hər il, xüsusən iyun, iyul, avqust aylarında müxtəlif mallar gətirən böyük dəvə karvanları

daxil olur... Şəhər geniş ticarət aparır və şaha böyük gəlir gətirir.” [13, səh.79].

**Nəticə**

Yan Streys Azərbaycanda ticarətin qaydalarından da bəhs etməyi unutmamışdı. O yazırdı: “Azərbaycanlıların bir adəti var ki, hər hansı canlı mal, insan və heyvan aldıqları zaman, 3 gündən sonra bəyənmədikləri halda, onu geri qaytara bilərlər” [5, səh.279]. Streys daha sonra yazırdı: “Eyni şey başqa mallara da aiddir” [5, səh.275].

Avropa səyyahlarının, xüsusilə də Yan Streysin gündəliklərində Azərbaycanda “əhalinin avropalılara qarşı bəzən sərt davranmaları”, hətta “onları təqib etmələri” ilə bağlı olan məlumatları da var. Lakin bu cür “səyyahlar” çox zaman “tacir” adı altında müxtəlif məqsədləri (bu məqsədlər isə heç də Azərbaycanın xeyrinə olmurdu) həyata keçirmək üçün gəlir, özlərini bu məqsəd və vəzifələrinə uyğun şəkildə aparırdılar. Təbiidir ki, bu cür əməllərə qarşı Azərbaycan əhalisi və hakim dairələr cavab tədbirləri ilə qarşılıq verirdi. Halbuki həmin dövrdə Avropa şəhərlərində bir müsəlmanın sərbəst şəkildə gəzib-dolaşması mümkün deyildi.

Bir sıra qərəzli cəhətlərinə, siyasi təmayülünə, subyektivliyinə baxmayaraq, Yan Streysin “Üç səyahət” əsəri mənbəşünaslıq baxımından diqqəti cəlb edir. Qeyd etdiyimiz cəhətlərə gəldikdə isə biz həmin məlumatları dövrün digər mənbələri ilə müqayisəli şəkildə təhlil edərək onların gerçək və obyektiv təsvirini yarada bilirik.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Полиевктов М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу. Тифлис: Изд-во АН СССР, 1935, 222 с.
2. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. İkinci nəşri. Bakı: Təhsil, 2012, 296 s.
3. Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək). Bakı: “Elm və Təhsil” nəşriyyatı, 2019, 499 s.
4. Mahmudov Y.M. Seçilmiş əsərləri, II cild. Bakı: «Təhsil» nəşriyyatı, 2011, 616 s.
5. Стрейс Я.Я. Три путешествия / Перевод Э.Бородиной. Москва: Соцэкгиз, 1935, 383 с.
6. Süleymanov N.M. Səfəvi dövlətində ölkədaxili iqtisadi əlaqələrin qurulmasında şəhərlərin rolu // Tarix və onun problemləri, №3, 2013, səh.11-17.
7. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2012. s.440
8. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s
9. Подробное описание путешествия Гольштинского Посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг., составленное секретарем посольства Адамом Олеарием / Перевел с немецкого языка П.Барсов. Изд. Императорского Общества истории и древностей России при Московском Университете. Москва, изд. Университетской типографии, 1870, 1070 s.
10. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980, 120 s
11. Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU nəşriyyatı, 2009, 274 s.
12. Котов Ф. Хождение купца Федота Котова в Персию. Москва: изд. Издательство Восточной Литературы, 1958, 109 s.
13. Клавихо Рюи Гонсалес. Дневник путешествия в Самарканд ко двору Тимура (1403-1406). Москва: Наука, 1990, 466 s.

**SAYAD CHINGIZ MEHTIZADE**
Baku State University
E-mail: sayadmehtizade@gmail.com

## TRADE LİFE OF AZERBAİJANİ CİTİES OF THE 17TH CENTURY ACCORDİNG TO JAN STREİS

**Abstract:** Many cities of Azerbaijan, which are important centers of trade and trade, have not lost their significance in international trade for centuries. Silk-cheese, various silky fabrics, tastefully executed by our masters of elegant decorations, textiles, world-famous carpets, etc. spread the glory of Azerbaijan to the whole world.
In the XVII century, many European countries tried to establish trade relations with Azerbaijan. The European states sent messages to the rulers of Azerbaijan, tried to trade in Azerbaijan with trade privileges, fought with each other for dominance in the eastern markets. The Netherlands also joined this fight. Well-known Dutch seafarer and traveler Jana Streis wrote a book in the book "Three Journeys" in which she wrote about the trade life of separate Azerbaijani cities. Although he was more concerned with the issues of trade, he also made some notes on the traditions, holidays and the existence of the Azerbaijani people. Jan Streis provided interesting information about the trade life of Irevan, Derbent, Shemakhi, Ardebil, Isfahan, Zenjan, Sultani and other cities.
**Keywords:** merchant, Iravan, Ardebil, Shamakha, Streis, Holland.

**САЯД ЧИНГИЗ кызы МЕХТИЗАДЕ**
Бакинский Государственный Университет
E-mail: sayadmehtizade@gmail.com

## ТОРГОВАЯ ЖИЗНЬ АЗЕРБАЙДЖАНСКИХ ГОРОДОВ XVII ВЕКА В ДАННЫХ ЯНА СТРЕЙСА

**Резюме:** Многие города Азербайджана, являющиеся важными центрами ремесла и торговли, веками не теряли своего значения в международной торговле. Шелк-сырец, разнообразные шелковые ткани, со вкусом выполненные нашими мастерами изящные украшения, текстиль, всемирно известные ковры и т.д. распространили славу Азербайджана по всему миру.
В XVII веке многие европейские страны пытались установить торговые отношения с Азербайджаном. Европейские государства отправляли послов к правителям Азербайджана, пытались выторговать у Азербайджана торговые привилегии, боролись друг с другом за господство на восточных рынках. Нидерланды также присоединились к этой борьбе. Известный голландский мореплаватель и путишественник Яна Стрейса написал книку в книгу «Три путешествия» в которой написал о торговой жизни отдельных азербайджанских городов, какие товары наиболее выгодно продовали голландские купцы торгующие на азербайджанских рынках на льготных условиях. Хотя он больше затронул вопросы торговли, он также сделал некоторые заметки о традициях, праздниках и быте азербайджанского народа. Ян Стрейс предоставил интересную информацию о торговой жизни Иревана, Дербента, Шемахи, Ардебиля, Исфахана, Зенджана, Султании и других городов.
**Ключевые слова:** торговля, Иреван, Ардебиль, Шемаха, Стрейс, голландский.

**Daxil olub:** 26.08.2021